

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 118 (24.005)

25 iyun 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib. Görüşdə BP şirkətinin SOCAR ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulanıb. Şirkətin bundan sonra da ölkəmizdə fəaliyyət göstərmək niyyəti ifadə olunub.

BP-nin Azərbaycanda yaşıl enerji növlərinə keçidlə bağlı verdiyi töhfə qeyd edilib. Şirkət tərəfindən Cəbrayılda inşa ediləcək 240 meqavatlıq günəş elektrik stansiyasının əhəmiyyətinə toxunulub, bununla bağlı iyunun 4-də Şuşada BP ilə imzalanmış sənədin önəmi vurğulanıb. Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparılıb.

“Sənaye ili” – 2022

## Kəngərli rayonunda emal sənayesi üçün mühüm xammal bazası yaradılır

### Cari ildə rayonda 78 hektarda qarğıdalı, 30 hektar sahədə günəbaxan əkilib

*Sənaye müasir iqtisadiyyatın əsasını təşkil edir desək, yəqin ki, yanılmarıq. Çünki elə bir dövrdə yaşayırıq ki, bir çox sahələr üzrə məhsulların hazır vəziyyətə gətirilməsi sənaye istehsalına əsaslanır. Bu sahəyə kənd təsərrüfatı məhsullarını da əlavə edə bilərik. Xüsusilə kənd təsərrüfatı məhsullarının emal sənayesinə cəlb olunması müasir dövrün tələblərindən birinə çevrilib.*

Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafı üçün mühüm addımlar atılır, hər il onlarla sənayeyönümlü yeni istehsal müəssisələri yaradılır, yerli məhsulların bazar həcmi genişləndirilir. 2022-ci ilin muxtar respublikada “Sənaye ili” elan olunması isə sənaye sahələrinin məqsədyönlü və perspektivli formada inkişaf etdirilməsini nəzərdə tutur. Muxtar respublika sənayesinə yeni töhfə olacaq Şərur Sənaye Parkında işlərin sürətlə davam etdirilməsi müxtəlif sənaye sahələrinin inkişafına da böyük təkan verəcək.

Sənaye Parkında nəzərdə tutulan mühüm sahələrdən biri də burada yaradılacaq bitki yağı istehsalı sahəsidir. Müasir dövrdə ərzaq təhlükəsizliyinin etibarlı təminatında qida üçün nəzərdə tutulmuş yağların, xüsusilə bitki yağlarının əhəmiyyətini kimsə sübut etməyə ehtiyac yoxdur. Çünki bitki yağları məişətdə ən çox istifadə olunan yağ növüdür. Xüsusilə qarğıdalı və günəbaxan kimi faydalı bitkilərdən hazırlanmış yağlar bu gün ərzaq sənayesinin ön sıralarında yer tutur. Muxtar respublikamızda da belə bir istehsal müəssisəsinin yaradılması və müəssisənin yerli xammalla təmin edilməsi çox vacibdir. Bu baxımdan son illərdə torpaq mülkiyyətçilərinə qarğıdalı və günəbaxan əkini üçün də lazımi dəstək göstərilir, əldə olunan məhsulun satışına şərait yaradılır.





Hazırda muxtar respublikamızda qarğıdalı və günəbaxan əkinlərinin mütəşəkkil təşkil olunduğu bölgələrdən biri Kəngərli rayonudur. Rayonda artıq bir neçə ildir ki, qarğıdalı əkinləri aparılır və ildən-ilə sahələr genişləndirilir. Bunun da əsas səbəblərindən biri budur ki, hasil olunan məhsul əldə qalmır, sahibkar onu fərdi olaraq vətəndaşlara satmaqla və yaxud dövlətə təhvil verməklə qazancını nağd şəkildə əldə edir. Bu sahədən yaxşı gəlir götürənlərin sayı ildən-ilə artır, paralel olaraq əkin sahələrinin həcmi də artır. Torpaq mülkiyyətçiləri yaxşı başa düşürlər ki, qiymətli bitki olan qarğıdalı istər heyvandarlıq yemlərinin hazırlanmasında, istərsə də ərzaq növü kimi istifadə olunmasında çox mühüm rol oynayır. Yeni yağ istehsalı müəssisəsinin istifadəyə hazırlanması isə bu bitkinin mühüm potensial bazasını yaratmağı zəruri edir. Təsadüfi deyil ki, Kəngərli rayonunda bu işlərə daha mütəşəkkil yanaşılıb, ötən dövrdə Böyükdüz kəndi yaxınlığında lazımi meliorativ tədbirlər həyata keçirilərək əkiləcək torpaqların münbitliyi artırılıb, əkin aqrotexniki qaydalar əsasında həyata keçirilib. Burada, əsasən, Türkiyə istehsalı olan məhsuldar növlü qarğıdalı toxumu səpilib.

Nəzərə alaq ki, mütəxəssislərə görə, yüksək yağlılıq faizinə malik qarğıdalıdan 146 adda məhsul hazırlanır. Əkin zamanı yüksək reproduksiyalı hibrid toxumlardan istifadə olunur. Bu baxımdan əkin aparılarkən muxtar respublikamızın torpaq-iqlim şəraitinə uyğun olan toxumlara üstünlük verilib. Bununla yanaşı, torpağın hazırlanması, münbitləşdirilməsi, əkinin şırım üsulu ilə həyata keçirilməsi və digər aqrotexniki tədbirlər diqqətdə saxlanılıb. Daha çox Qıvraq qəsəbəsi, Böyükdüz, Şahtaxtı, Yurdçu kəndləri daxil olmaqla, ümumilikdə, 78 hektar sahədə qarğıdalı, 30 hektar sahədə günəbaxan əkilib.

Günəbaxan əkinində də müəyyən təcrübələrin qazanıldığını deyə bilərik. Məsələn, Böyükdüz kənd sakini, ailə təsərrüfatçısı İlyas Osmanov bu il 10 hektar sahədə günəbaxan əkib. O bu sahə ilə 4 ildir ki, məşğul olur. Ötən il əkdiyi günəbaxan sahələrinin həcmi 5 hektar olub. Bu il isə qeyd etdiyimiz kimi, əkin sahələrini iki dəfə artırıb. Ailə təsərrüfatçısı ötən illərdə əldə etdiyi məhsulu muxtar respublikada fəaliyyət göstərən “Ləzzət Qida” Məhdud Məsuliyyətli Cəmiyyətinə sataraq yaxşı qazanc əldə edib. Xok kəndindən torpaq mülkiyyətçisi Mübariz Əliyev isə bu il 4 hektar sahədə günəbaxan əkini aparıb. Böyükdüz kəndindən Həbib Məmmədov 4 hektar, Samiq Osmanov 2 hektar sahədə qarğıdalı əkməklə bu işə öz töhfələrini verməyə çalışırlar.

Göründüyü kimi, bu il Kəngərli rayonunda istər qarğıdalı, istərsə də günəbaxan əkinlərinin sahəsi xeyli artırılıb. Sahələrin genişləndirilməsində məqsəd bir tərəfdən yaxşı qazanc əldə etməkdirsə, digər tərəfdən muxtar respublikada bitki yağı istehsalında xammala yaranacaq tələbata töhfə verməkdir. Ümid edirik ki, Şərur Sənaye Parkının fəaliyyətə başlaması növbəti illərdə adıçəkilən kənd təsərrüfatı məhsullarına tələbatı da artıracaq, bu isə mövcud imkanlardan daha səmərəli və maksimum istifadəyə şərait yaradacaqdır.

Səbuhi HƏSƏNOV

## Cəhri qəsəbəsində tikinti-quruculuq işləri aparılır

Muxtar respublikamızda reallaşdırılan uğurlu dövlət siyasətinin bir istiqamətini də kompleks tikinti-quruculuq işləri təşkil edir. Ulu öndərin ideyalarının təşəkkül tapdığı məmləkətimizdə artıq elə bir dövr yaşanır ki, diyarımızın bütün kənd və qəsəbələrində, rayonlarında, bir sözlə, bütün ünvanlarda həyata keçirilən addımlar onlara müasirlik siması qazandırıb, yaşayış yerlərimizdəki kənd və şəhər fərqi təbii olaraq aradan qalxıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın uğurlu icrası nəticəsində diyarımızın bütün yaşayış məskənlərində mövcud infrastruktur yenilənir, köhnə və yararsız olan tikililərin əvəzində yeni-yeni müasir mənzillər insanlara təqdim olunur.

Həyata keçirilən bu tədbirlər muxtar respublikamızın iri yaşayış məntəqələrindən olan Babək rayonunun da simasını dəyişib. Geniş quruculuq tədbirləri rayonun Cəhri qəsəbəsini də əhatə edib. Belə ki, ötən ilin son günlərində qəsəbədə inşa olunan yeni məscidin açılışı zamanı Ali Məclisin Sədri burada həyata keçirilən kompleks tikinti-quruculuq işləri ilə maraqlanmış, Cəhri-Gərməçataq kənd avtomobil yolunda aparılan yenidənqurma işlərinin icrası istiqamətində də müvafiq tapşırıqlar vermişdir. Verilən tapşırıqlara uyğun olaraq hazırda Cəhri qəsəbəsindən keçməklə bir neçə kəndi özündə birləşdirən əsas yol yatağı genişləndirilir, təhlükəsiz və rahat hərəkət təmin edilir. Əvvəllər müvafiq olaraq eni cəmi 4-5 metr olan yol yatağı hərəkətin intensivliyinə, bəzən də təhlükəsizliyinə mane olurdu. Görülən işlər çərçivəsində yol yatağı genişləndirilərək 12 metrə çatdırılıb. Yeni inşa olunan yol 2 zolaqdan ibarət olacaq. Qeyd edək ki, bu istiqamətdə rayonun ucqar dağ və sərhəd kəndlərindən olan Aşağı Buzqov, Yuxarı Buzqov və Gərməçataq kəndləri yerləşir.

Bununla yanaşı, qəsəbədə infrastrukturun yenilənməsi zamanı yol kənarındakı yararsız hasarlar, yardımçı tikililər də plana salınaraq sökülüb, daha uyğun mövqelərdə yeniləri ilə əvəz olunub. Genişləndirilən yol yatağının kənarlarında suvarma sistemini təmin edən su kanalları və işıqlandırma dirəkləri quraşdırılır.

Atılan hər bir uğurlu addım muxtar respublikada həyata keçirilən dövlət siyasətinin təməlində insan amilinin durduğunu bir daha təsdiqləyir.

Lalə ALLAHVERDİYEVA

# Vətən sərhəddən başlayır

## Sərhədçilərimiz çəkilməkdə olan yeni sərhədlərimizdə xidmət etmək arzusundadırlar



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:* ***“Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır. Biz elə etməliyik ki, sərhədlərimiz tam şəkildə qorunsun”.***

Tarixin bütün dönəmlərində sərhədlər mühüm əhəmiyyət daşıyan atribut kimi dəyərləndirilib və bu gün daha böyük önəm kəsb edir. Sərhədləri qorumaq isə hər bir vətəndaş üçün ən müqəddəs vəzifələr sırasında olub. Bu ünvanlar həm də mənsub olduğu dövlətin qapısı sayılıb. Məhz ona görə də “Vətən sərhəddən başlayır” deyimi dünən də, bu gün də işlətdiyimiz çox dəqiq ifadədir.



Ölkəmizdə dövlət sərhədlərinin qorunmasının prioritet vəzifələr sırasında olması isə həm də tarixən mehriban qonşuluq münasibətlərinin yaşadılması, belə əlaqələrin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyətə malikdir. Təəssüf ki, uzun illərboyu süfrəmizin çörəyi ilə böyüyən nankor ermənilər xalqımızın humanist xarakterindən istifadə edərək hələ sovet dönəmində daxili sərhədlərimizi aşaraq torpaqlarımıza sahib olmağa çalışdılar. Lakin onların geniş planları ürəklərində qalıb. Çünki artıq güclü sərhəd qoşunlarımız formalaşıb və bu gün doğma ölkəmizin sərhədləri göz bəbəyi kimi qorunur. Qürurverici hal həm də ondadır ki, bu gün sərhəd zonalarımızda yaşayan sakinlər də sərhədçi ömrü yaşamaqla fəxr duyurlar. Dövlətimiz isə sərhədlərimizin etibarlı mühafizəsi üçün əlindən gələni edir. Bunun üçün dörd bir tərəfdən sərhəd zonasında yerləşən muxtar respublikada bu istiqamətdə görülən işlərə baxmaq kifayət edər. İlk olaraq muxtar respublikamızın sərhədlərini qoruyan sərhəd dəstəsinin tarixinə qısa nəzər salaq. Ümummilli liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi müstəqil dövlət quruculuğu tədbirləri sırasında sərhəd qoşunlarının formalaşması və inkişafı mühüm yer tuturdu. Həmin dövrdə Sovetlər Birliyinin muxtar respublikadakı sərhədlərində 41-ci sərhəd dəstəsi dayanırdı. Sərhədin Ordubad və Sədərəkdən keçən hissəsinin mühafizəsini aparan sərhəd zastavaları isə Ermənistandakı sərhəd dəstəsinin tabeliyində idi. Ulu öndərin təşəbbüsü ilə həmin zastavalar Naxçıvandakı 41-ci sərhəd dəstəsinə birləşdirildi. Bunun ardınca 41-ci sərhəd dəstəsi də bütün əmlakı və silah-sursatı ilə birlikdə Naxçıvan Muxtar Respublikasının tabeliyinə verildi. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində üçrəngli bayrağımız qaldırıldı və bununla da Azərbaycanın ilk milli sərhəd dəstəsinin təməli qoyuldu. Ümummilli lideri Heydər Əliyevin səyi ilə keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın 41-ci sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olundu.



Ulu öndərin rəhbərliyi ilə Naxçıvandan başlanan ordu quruculuğu bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun ifadəsidir ki, dövlət başçısının müvafiq fərmanları ilə 2004-cü ildə Naxçıvan Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası yaradılıb, 2015-ci ildə Sərhəd Diviziyası “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına çevrilib. Muxtar respublikada sərhədlərimizin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələdədir. Ötən dövrdə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının mərkəzi qərargahı yenidən qurulub, 14 sərhəd zastavası, eləcə də 2 sərhəd komendantlığı üçün yeni yaşayış və xidmət kompleksləri istifadəyə verilib, maddi-texniki baza gücləndirilib, sərhədçi ailələrinin məişət şəraiti yaxşılaşdırılıb.



İyun ayının 1-də, Milli Qurtuluş Günü ərəfəsində “Naxçıvan” Əlahiddə Sərhəd Komendantlığının xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi belə tədbirlərin davamlı xarakter almasının ifadəsi oldu. Bu günlərdə həmin ünvanda gördüklərimiz, burada yaradılmış yüksək şərait sərhədçilərimizin bundan sonra da öz xidməti borclarına daha yüksək məsuliyyətlə yanaşacaqları qənaətini yaratdı.

Qeyd edək ki, tabeliyində 8 sərhəd zastavası olan 1-ci Sərhəd Komendantlığının xidməti ərazisi Şərur, Sədərək və Kəngərli rayonlarını əhatə edir. Komendantlıqdakı 2 mərtəbəli qərargah binası, 96 yerlik əsgər yataqxanası, 136 yerlik yeməkxana, 8-i üçotaqlı, 10-u ikiotaqlı olmaqla, 18 mənzillik yaşayış binası, 2 nəzarət-buraxılış məntəqəsi, hamam-camaşırxana, qazanxana, əşya, tərəvəz, silah-sursat və ərzaq anbarları, avtomobillər üçün 9 saxlanc yeri və transformator yarımstansiyası yerli inşaat materiallarından istifadə olunmaqla yenidən qurulub, yenidənqurmada keyfiyyət amilinə ciddi önəm verilib. Qərargah binasında müşavirə zalı, 10 iş otağı, arxiv və rabitə otaqlarında da hərtərəfli şərait yaradılıb. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan əsgər yataqxanasında subay zabitlər üçün istirahət yeri, sinif, məişət, silah, rabitə, 5 iş otağı var. Sərhədçilər 10 çarpayılıq tibb məntəqəsinin və aptekin fəaliyyətindən istifadə edirlər.

Ərazini gəzirik. Burada yeni sıra meydanı, futbol meydançası, idman



şəhərciyi, ailələr və əsgərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət və uşaq əyləncə yerləri yaradılıb, 200 abonentlik müasir avtomat telefon stansiyası və 22 sabit videokamera sistemi quraşdırılıb. Videokameraların görüntüləri mərkəzləşdirilmiş qaydada sərhəd komendantlığına və diviziyaya ötürülür, serverdə 2 ay müddətində saxlanır. 6 hektar ərazidə abadlaşma işləri aparılıb, müasir işıqlandırma sistemi qurulub, yaşıllıq salınıb.

Yeri gəlmişkən onu da qeyd edək ki, 2022-ci ildə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının yaradılmasının 30-cu ildönümü tamam olur. Belə bir vaxtda istifadəyə verilən yeni xidməti yaşayış kompleksinin açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov komendantlığın yenidən qurulmasında əməyi və xidməti olanlara təşəkkür edərək deyib ki, bütün bunlar Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir.

***“Sərhəd hər bir ölkənin müstəqilliyini təsdiq edən amil, sərhədlərin etibarlı mühafizəsi isə inkişaf və sabitlik deməkdir”***, – deyən Ali Məclisin Sədri vurğulayıb ki, ona görə də “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti Azərbaycan Respublikasının muxtar respublikadakı 234 kilometrlik dövlət sərhədini bundan sonra da etibarlı mühafizə etməli, hərbi intizama ciddi əməl olunmalı, sərhəd nəzarəti və xidməti fəaliyyət günün tələbləri səviyyəsində qurulmalı, əməliyyat şəraiti daim nəzarətdə saxlanılmalıdır. Bu tövsiyələri əldə rəhbər tutaraq hərbi qulluq və xidmətini böyük ruh yüksəkliyi ilə davam etdirən zabit və əsgərlərlə həmsöhbət olduq.

***Komendantlığın qərargah rəisi mayor Şahmar Pənahov*** bildirdi ki, illərdir, muxtar respublikamızda həyata keçirilən tikinti-quruculuq tədbirləri uğurla davam etdirilir. Təbii ki, bu, qədim diyarımızda təmin olunmuş ictimai-siyasi sabitliyin



bəhrəsidir. Bu bəhrələrdən hərbçilərimizə də pay düşüb. Bunu muxtar respublikanın sərhədçilərinin də timsalında görmək olar. Həyata keçirilən tədbirlər sərhədlərimizin etibarlı mühafizəsinə, insanların rahat yaşamasına, çalışdıqları iş yerlərində fəaliyyətlərini uğurla davam etdirmələrinə imkan verib. Sərhədçilərimiz də yerinə yetirdikləri vəzifənin məsuliyyətini dərindən başa düşürlər. Yaradılan şərait isə həmin vəzifələrin öhdəsindən layiqincə gəlməyi tələb edir. Belə şərait üçün minnətdarlığımızı bildirir, söz veririk ki, sərhədlərimizin keşiyində daha ayıqsayıq dayanacağıq.

Müsahibimiz deyir ki, 2020-ci ilin sentyabr ayınadək əsgərlərlə söhbətlərində tez-tez onlar soruşurdular: “Nə vaxtadək torpaqlarımız ermənilərin tapdağı altında qalacaq?” Şükür olsun Allaha ki, Ali Baş Komandanın “dəmir yumruğu”, hərbçilərimizin qəhrəmanlığı ilə bu haqlı istəyimizə çatdıq. Bu müharibədə naxçıvanlı hərbçilər də böyük şücaətlər göstərdilər, ölümün gözünə dik baxaraq, canlarından keçərək Böyük Zəfər çaldılar.

Bu gün sərhədçilərimizin bir arzusu var: ermənilərlə aramızda olan sərhədlərin çəkilməsi tezliklə başa çatdırılsın, o sərhədlərin keşiyində dayanaq. Bu istəyimizin də tezliklə reallaşması uzaqda deyil.

***Baş leytenant İlham Allahverdiyev*** deyir ki, övladlarını görməyə gələn valideynlərin burada yaradılan şəraitdən ağızdolusu razılıq etmələri hamımızı ürəkdən sevindirir. Sözün həqiqi mənasında, bu gün muxtar respublikadakı bütün qoşun hissələrində elə nümunəvi şərait yaradılıb ki, özünü öz evindəki kimi hiss edirsən. Elə yeni istifadəmizə verilmiş bu komendantlıq kimi. Bütün məişət və istirahət şəraiti, həm zabitləri, həm də əsgərləri öz vəzifə borclarını daha səylə yerinə yetirməyə həvəsləndirir.

***Əsgər Ərcan Mehdiyev:*** – Sərhəddə xidmət etmək böyük qürur yaşadır hər birimizdə. Başa düşürük ki, bizə çox şərəfli bir vəzifə tapşırılıb! Ata-babalarımızdan miras qalan, heç nə ilə əvəz olunmayan Vətənimizin hər qarış torpağı bizim üçün müqəddəsdir. Sərhədlərimizi qorumaq elə bu müqəddəsliyi qorumaqdır.

Həmin gün daha bir sevinc yaşanıb. Ali Məclisin Sədri burada qulluq edən sərhədçilərin ailələri ilə görüşüb. Muxtar respublika rəhbərinin ***“Bu gün 1-ci Sərhəd Komendantlığının xidməti-yaşayış kompleksi istifadəyə verildi. Burada həm xidmətin düzgün təşkili, həm də rahat yaşayış üçün hərtərəfli şərait yaradılıb. Zabit o zaman öz xidmətini yaxşı yerinə yetirə bilir ki, onun ailəsi üçün lazımi şərait təmin olunur. İstifadəyə verilən xidmət kompleksində bütün bunlar nəzərə alınıb. Burada ailələr rahat yaşayacaq, onların həyat yoldaşları da dövlət sərhədində öz xidmətlərini layiqincə yerinə yetirəcəklər. Ərazidə uşaqların istirahəti üçün də lazımi şərait yaradılıb. Bir sözlə, bu gün sərhədçi ailələri, eyni zamanda şəxsi heyət üçün lazımi şəraitin olması xidmətin yaxşı təşkil olunacağına əminlik yaradır”*** sözlərini sərhədçi ailələri onlara göstərilən ən böyük qayğının bariz təzahürü kimi dəyərləndiriblər.

Hələ də növbəti dövlət qayğısının təəssüratlarını yaşayan sərhədçilərimizdən xoş ovqatla ayrılıram. Düşünürəm ki, artıq müstəqil dövlətimizin vətəndaşları böyük və tarixi Qələbəmizin qazanılmasından ötən 2 ilə yaxın bir müddətdə daha da güclənən ordumuzun istənilən anda verilən tapşırıqları yerinə yetirə biləcəyindən qürur duyurlar. Bu sırada sərhədçilərimizi də xüsusi vurğulamalıyıq. Yadıma ulu öndərimizin sözləri düşür: ***“Vətəni qorumaq öz ana torpağını, evini, obasını, yurdunu qorumaqdır. Vətəni qorumaq öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq Azərbaycan xalqının tarixini, mənəviyyatını, əsrlərboyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu, şərəfli yoldur. Bu, şərəfli vəzifədir”.***

*Vətəni qorumaq kimi şərəfli vəzifənin başlanğıcı sərhədlərimizdən başlayır. Sərhədi qorumaq Vətəni qorumaq demək deyilmi? Biz də Vətəni – sərhədi qorumaq kimi şərəfli bir vəzifəni yerinə yetirən sərhədçilərimizə bundan sonrakı xidmətlərində müvəffəqiyyətlər arzulayırıq.*

**Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Universitet əməkdaşlarından daha bir uğur

“Naxçıvan” Universitetinin əməkdaşı və dissertantı olan Dilarə Əsgərova və Selcan Abdullayeva Erasmus+ K107 mübadilə proqramı çərçivəsində 5 aylıq Phd tədqiqatı aparmaq üçün İspaniyanın Valladolid Universitetində təhsil almaq haqqı qazanıblar.

Qeyd edək ki, Dilarə Əsgərova 2015-ci ildən “Naxçıvan” Universitetinin əməkdaşı və 2019-cu ildən həmin universitetin dissertantıdır. Hazırda Beynəlxalq əlaqələr şöbəsində koordinator vəzifəsində çalışır.

Selcan Abdullayeva 2019-cu ildən “Naxçıvan” Universitetinin əməkdaşı və 2021-ci ildən “Naxçıvan” Universitetinin dissertantıdır. Hazırda Xarici dillər kafedrasının müəllimidir.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət orqanlarında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatı üzrə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 25 iyun-25 iyul 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 90 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətindəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzinə təqdim edilməlidir.

Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vakant vəzifələrin tutulması üçün esse imtahanı və müsahibə keçiriləcəkdir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| | **1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)** | | | |
| 120113 | İnsan hüquqlarının müdafiəsi şöbəsi, iqtisadi və sosial hüquqların müdafiəsi üzrə | 1 | 5 | baş məsləhətçi |
| 120143 | İnsan hüquqlarının müdafiəsi şöbəsi, məhbusların hüquqlarının müdafiəsi üzrə | 1 | 5 | baş məsləhətçi |
| 120223 | Hüquqi maarifləndirmə, elmi-analitik, informasiya və ictimaiyyətlə əlaqələr şöbəsi, informasiya və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 5 | baş məsləhətçi |
| 120233 | Hüquqi maarifləndirmə, elmi-analitik, informasiya və ictimaiyyətlə əlaqələr şöbəsi, qeyri-hökumət təşkilatları üzrə | 1 | 5 | baş məsləhətçi |
| | **Cəmi:** | **4** | | |
| | **2. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi** | | | |
| 310013 | Aparat. Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 310113 | Texniki tənzimləmə işinin təşkili sektoru, dağ-mədən işlərində texniki təhlükəsizliyə nəzarət üzrə | 1 | 6 | baş məsləhətçi |
| 310203 | Fövqəladə halların xəbərdar edilməsi şöbəsinin radiasiya, kimyəvi və bioloji təhlükəsizliyə nəzarət bölməsi, radioekoloji monitorinqin aparılması üzrə | 1 | 6 | baş məsləhətçi |
| 310503 | Maliyyə-təsərrüfat şöbəsi | 1 | 6 | baş məsləhətçi-mühasib |
| 311013 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Hüquqşünas | 1 | 7 | baş məsləhətçi |
| 311023 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi, lisenziyaların verilməsi üzrə | 1 | 7 | baş məsləhətçi |
| 311113 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Layihə, ekspertiza və geoloji işlərin əlaqələndirilməsi sektoru | 1 | 7 | baş məsləhətçi |
| 311123 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Tikinti müfəttişliyi (sektor səlahiyyətli) | 1 | 7 | baş məsləhətçi |
| 311133 | Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi. Dövlət ekspertiza mərkəzi (sektor səlahiyyətli) | 3 | 7 | baş məsləhətçi |
| 311134 | | 1 | 7 | böyük məsləhətçi |
| 311203 | Xüsusi Riskli Xilasetmə Xidməti. Silah və texniki avadanlıq bölməsi | 1 | 7 | baş məsləhətçi |
| | **Cəmi:** | **13** | | |
| | **3. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| 200023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 200506 | Mühasibat uçotu və ümumi işlər şöbəsi | 1 | 6 | məsləhətçi-mühasib |
| 200216 | Ekoloji ekspertiza və monitorinq sektoru | 1 | 6 | məsləhətçi-ekspert |
| 200225 | Bioloji sərvətlərin bərpası, artırılması və hesaba alınması sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 200316 | Meşələrin bərpası, mühafizəsi və meşəsalma sektoru | 1 | 6 | məsləhətçi |
| 200325 | Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 200435 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi, ovşünas | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **7** | | |
| | **4. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| 210023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 210026 | Aparat. Hüquqşünas | 1 | 6 | məsləhətçi |
| 210103 | Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 210306 | Elektron xidmətlər və vətəndaşların qəbulu sektoru | 1 | 6 | məsləhətçi |
| | **4.1. Dövlət Sosial Təminat Xidməti** | | | |
| 212013 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216036 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 217013 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| 217036 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **8** | | |
| | **5. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi** | | | |
| 229016 | Şərur Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 227016 | Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **2** | | |
| | **6. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi** | | | |
| 300305 | Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsi | 2 | 6 | aparıcı məsləhətçi |
| 300405 | İqtisadiyyat və maliyyə şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 300115 | Texniki nəzarət və aqroservis sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **4** | | |
| | **7. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi** | | | |
| 240703 | Ümumi işlər və kadrlar şöbəsi, mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 240033 | Aparat | 1 | 6 | baş məsləhətçi-mühasib |
| 240013 | Aparat | 1 | 6 | baş hüquqşünas |
| 240205 | Gəlirlərin proqnozu şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 240313 | Büdcənin uçotu və hesabatı sektoru | 1 | 6 | baş məsləhətçi |
| 248113 | Naxçıvan Şəhər Maliyyə İdarəsi. Xəzinə əməliyyatı sektoru | 1 | 7 | baş məsləhətçi |
| 248115 | | 1 | 7 | aparıcı məsləhətçi |
| 248205 | Naxçıvan Şəhər Maliyyə İdarəsi. Xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 242203 | Babək Rayon Maliyyə İdarəsi. Xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş məsləhətçi |
| 244203 | Ordubad Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş məsləhətçi |
| 244115 | Ordubad Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru, gəlirlərin proqnozu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 243203 | Culfa Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş məsləhətçi |
| 246117 | Kəngərli Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş mühasib |
| 245115 | Şahbuz Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru, gəlirlərin proqnozu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 247117 | Sədərək Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | baş mühasib |
| 247113 | Sədərək Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | baş məsləhətçi |
| | **Cəmi:** | **16** | | |
| | **8. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi** | | | |
| 250023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 250013 | Aparat. Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 250603 | İncəsənət və təhsil müəssisələri ilə iş şöbəsi, musiqinin inkişafı üzrə | 1 | 6 | baş məsləhətçi |
| 250623 | İncəsənət və təhsil müəssisələri ilə iş şöbəsi, təhsil müəssisələri ilə iş üzrə | 1 | 6 | baş məsləhətçi |
| 258007 | Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 258016 | | 1 | 7 | məsləhətçi |
| 259007 | Şərur Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 259016 | | 1 | 7 | məsləhətçi |
| 252016 | Babək Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 254007 | Ordubad Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 254015 | | 1 | 7 | aparıcı məsləhətçi |
| 254016 | | 1 | 7 | məsləhətçi |
| 257007 | Sədərək Rayon Mədəniyyət Şöbəsi | 1 | 7 | baş mühasib |
| 257016 | | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **14** | | |
| | **9. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi** | | | |
| 270205 | Telekommunikasiya və radiotezliklərin qeydiyyatı şöbəsi, telekommunikasiya üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 270305 | Məlumat hesablama və informasiya texnologiyaları şöbəsi, informasiya təhlükəsizliyi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 270503 | Dövlət tədbirlərinin texniki təminatı sektoru, mühəndis | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| | **10. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi** | | | |
| 280023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 280903 | Ümumi işlər sektoru | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **11. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi** | | | |
| 290106 | Ümumi təhsil şöbəsi | 2 | 6 | məsləhətçi |
| 290206 | Orta ixtisas və peşə təhsili şöbəsi | 1 | 6 | məsləhətçi |
| 290505 | Məktəbdənkənar təhsil sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 294107 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 294105 | | 1 | 7 | aparıcı məsləhətçi |
| 296107 | Kəngərli Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297107 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297125 | Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **9** | | |
| | **12. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** | | | |
| 410206 | Uşaq problemləri şöbəsi | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **13. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi** | | | |
| 399007 | Şərur Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 392007 | Babək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| | **Cəmi:** | **2** | | |
| | **14. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** | | | |
| 380233 | Şəhərsalma-arxitektura nəzarəti və texniki normalar şöbəsi, əməyin təşkilinə nəzarət və texniki təhlükəsizlik üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |

| | | | | |
|---|---|---|---|---|
| **15. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti** | | | | |
| 320303 | Həqiqi hərbi xidmətə çağırış və çağırışqabağı hazırlıq şöbəsi, tibb müəssisələrində müayinəyə nəzarət üzrə | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | | **1** | | |
| **16. Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti** | | | | |
| 420425 | Sertifikatlaşdırma və qeydiyyat sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 420503 | Uyğunluğun qiymətləndirilməsi üzrə akkreditasiya şöbəsi | 2 | 6 | baş məsləhətçi |
| 420506 | | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | | **4** | | |
| **17. Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti** | | | | |
| 520073 | Baytarlıq nəzarəti və özəl baytarlıq subyektləri ilə iş şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 520075 | | 1 | 6 | aparıcı məsləhətçi |
| 520063 | Epizootik tədbirlər şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 520065 | | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | | **4** | | |
| **18. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti** | | | | |
| 450023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 450215 | Yerquruluşu, geodeziya, xəritəçəkmə və torpaq ehtiyatlarından istifadəyə nəzarət sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 458005 | Naxçıvan Şəhər İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 457005 | Sədərək Rayon Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 457006 | | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | | **5** | | |
| **19. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi** | | | | |
| 470103 | Dini qurumlarla iş və dinşünaslıq ekspertizası şöbəsi | 1 | 6 | baş məsləhətçi-hüquqşünas |
| 470113 | Dini qurumlarla iş və dinşünaslıq ekspertizası şöbəsi, dini icmalarla iş üzrə | 1 | 6 | baş məsləhətçi |
| 470205 | Dini maarifləndirmə işinin təşkili və qeydiyyat sektoru, qeydiyyat üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | | **3** | | |
| **20. Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi** | | | | |
| 480013 | Aparat. Baş metodist | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | | **1** | | |
| **21. Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası** | | | | |
| 530673 | Ekspertiza, proqramlaşdırma və lisenziya sektoru, hüquq və lisenziya üzrə | 1 | 6 | baş məsləhətçi |
| **Cəmi:** | | **1** | | |
| **22. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzi** | | | | |
| 261403 | Uçot və səyyar xidmətin təşkili sektoru | 1 | 6 | baş məsləhətçi-mühasib |
| 261204 | Vətəndaşların hüquqlarının təminatı sektoru | 2 | 6 | böyük məsləhətçi |
| **Cəmi:** | | **3** | | |
| **23. Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsi** | | | | |
| 800106 | Məhkəmə iclas katibi | 2 | 6 | məsləhətçi |
| **Cəmi:** | | **2** | | |
| **24. Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsi** | | | | |
| 810106 | Məhkəmə iclas katibi | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | | **1** | | |
| **25. Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsi** | | | | |
| 778116 | Aparat | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | | **1** | | |
| **26. Naxçıvan Şəhər Məhkəməsi** | | | | |
| 780104 | Aparat | 1 | 7 | böyük məsləhətçi |
| 780005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| **Cəmi:** | | **2** | | |
| **27. Şərur Rayon Məhkəməsi** | | | | |
| 790005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| **Cəmi:** | | **1** | | |
| **28. Babək Rayon Məhkəməsi** | | | | |
| 720005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| 720106 | Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | | **2** | | |
| **29. Ordubad Rayon Məhkəməsi** | | | | |
| 740106 | Aparat. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | | **1** | | |
| **30. Sədərək Rayon Məhkəməsi** | | | | |
| 770005 | Aparat | 1 | 7 | hakim köməkçisi |
| 770106 | Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | | **2** | | |
| **Yekun:** | | **120** | | |

## *"Nuh diyarı – Naxçıvan"* infoturu bu qədim diyarın turizm potensialını tanıtmaq baxımından əhəmiyyətli və yaddaqalan oldu

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasının turizm potensialının təbliği məqsədilə "Nəqşicahan Holdinq", Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin təşkilatçılığı ilə 21-24 iyun tarixlərdə "Nuh diyarı – Naxçıvan" adlı infotur təşkil edilib. Turda Azərbaycan, Türkiyə və İranı təmsil edən nüfuzlu media orqanlarının və turizm şirkətlərinin 100-dən çox nümayəndəsi iştirak edib. Onlar sırasında Azərbaycan və qonşu ölkələrin ən nüfuzlu turizm agentlikləri, bloqçular, Türkiyənin nüfuzlu "Star" və "ATV" telekanalları, "Anadolu" Agentliyi, İran İslam Respublikasının tanınmış turizm şirkətləri və "İrna" Xəbər Agentliyi, eləcə də ölkəmizin "Azad Azərbaycan", "ARB", "Space", "CBC", "Real TV", "İctimai", "Azərbaycan" televiziyalarının, "Report", "Trend" kimi tanınmış informasiya agentliklərinin nümayəndələri olub.



Üçgünlük səyahət çərçivəsində infotur iştirakçıları üçün 23 iyun tarixdə "Duzdağ" otelində Qala gecəsi keçirilib. Qala gecəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzovun çıxışları olub. Bildirilib ki, son illərdə qədim diyarın turizm potensialından səmərəli istifadə olunması, mövcud tələblərə cavab verən turizm infrastrukturunun formalaşdırılması sahəsində mühüm uğurlar əldə olunub, muxtar respublikada həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar turizmi inkişaf edən sektora çevirib.

Qeyd olunub ki, Naxçıvan həm daxili turizm bazarında, həm də regional və qlobal səviyyədə ilbəil öz rəqabətqabiliyyətliliyini artırır. Burada ənənəvi turizm məhsulları ilə yanaşı, yeniliklər də təklif edilir, xidmət səviyyəsi artırılır, kadrların peşəkarlıq səviyyəsinin artırılması istiqamətində işlər görülür. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin birgə fəaliyyətinin nəticəsi olaraq Naxçıvanın turizm potensialı son illərdə beynəlxalq tədbirlərdə sərgilənir, nümayiş etdirilir, Naxçıvan turizminə xüsusi marketinq dəstəyi göstərilir və bunlar öz effektini verir. Muxtar respublikada turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yaradılan şərait qədim diyarın turizm potensialının inkişafı üçün bundan sonra da geniş üfüqlər açacaq.

Tədbir Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı tərəfindən hazırlanan konsert proqramı ilə davam edib. Rəngarəng rəqs və musiqi nömrələri infotur iştirakçılarında xoş təəssürat yaradıb. Sonda qonaqlara simvolik hədiyyələr təqdim olunub.

"Şərq qapısı" qəzetinin əməkdaşları kimi ikigünlük infotur boyu onları müşayiət etmiş, qonaqların zəngin təəssüratlarını oxucularımızla bölüşmüşük. İnfoturun son günü aldığımız növbəti müsahibələri sizlərə təqdim edirik:

***Rəhman Quliyev – "Luna Travel" şirkətinin icraçı direktoru, turizm üzrə ekspert:*** – Naxçıvanda geosiyasi vəziyyəti də nəzərə alaraq turizmi genişləndirmək üçün əhəmiyyətli addımlar atılır. Bunun üçün əlverişli, münbit şərait, kifayət qədər potensial var. Qardaş Türkiyə ilə birbaşa quru sərhədimizin olması da turist axınına zəmin yaradır. Qonşu ölkələrdən muxtar respublikaya, eyni zamanda muxtar respublikadan həmin ölkələrə turist mübadiləsini yaxın gələcəkdə tətbiq edə bilərik. Gələcəkdə Qarabağ bölgəsindən Füzuli, Zəngilan Beynəlxalq Hava limanlarından Naxçıvana birbaşa reyslərin açılması bu gözəl diyarın turistlər üçün əlçatanlığını təmin edə bilər. Naxçıvanla quru sərhədlərin açılması da qonşu İran, Türkiyə dövlətlərindən Naxçıvana müəyyən istiqamətlərdən turist axınının genişlənməsinə şərait yaradacaq. Hesab edirəm ki, yaxın gələcəkdə belə beynəlxalq tədbirlərin keçirilməsi Naxçıvanı dünya ölkələrində də geniş tanıdacaq və buraya turist axınını gücləndirəcək. Biz bundan sonra da Naxçıvanın hər bir nöqtəsinə turist axınını təmin etmək üçün çalışacağıq.





***Ayşən Rüstəmova – Azərbaycan televiziyasının müxbiri:*** – Naxçıvanın təbiəti, tarixi abidələri cəlbedici, meyvələri dadlı, qiymətlər də münasibdir. Turisti ucuzluq, gözəl tarix, yaxşı xidmət çəkir. İnsanların gülərüzlülüyü burada yadımda qaldı. Hamı o qədər doğmadır, ləhcəsi, sözü o qədər şirindir ki... Hər kəs kökünə, özünə bağlıdır və Naxçıvanla fəxr edir. Çox sevinirəm ki, nə yaxşı gəldik. Naxçıvan yaddaşımdan heç çıxmayacaq. Buradan ayrılmaq istəmirəm. Mütləq gələn səfər valideynlərim və övladlarımla birgə buraya gələcəyəm. Naxçıvana gəlməyə də, gəzməyə də dəyər.

***Mohammadreza Aiazi – Şərqi Azərbaycandakı Aria Xəbər Agentliyinin və Arman Təbriz xəbər saytının direktoru:*** – Son dəfə 1997-ci ildə Naxçıvana gəlmişdim. İndi Allaha şükür edirəm ki, Naxçıvan gündən-günə inkişaf edir. Həmişə adı ucalarda olsun. Burada həmişə aydınlıq, gözəllik olmasını istəyirik. Naxçıvanın çətin dövrlərində insanlar təhlükəli mühitdə yaşayıblar. İndi təhlükəsizlik, əmin-amanlıq mövcuddur, turizm üçün əlverişli şərait yaradılıb. İstəyirik ki, naxçıvanlılar da İrana gəlsinlər. Biz bu müddət ərzində Ordubadda, Batabatda gözəllikləri gördük. Şəhər özü bu illər ərzində çox gözəlləşib. Naxçıvanın əhalisi də öyrəşib turistlə sədaqətli, şəffaf, aydın davransın. Bu, çox böyük bir sərmayədir bura üçün. Buradan yüksək təəssüratla ayrılıram və ölkəmə qayıdandan sonra muxtar respublikanın gözəlliklərini, turizm potensialını əks etdirən "Naxçıvan səfərnaməsi" adlı geniş məqalə yazacağam.

**Güntac ŞAHMƏMMƏDLİ**
**Gülcamal TAHİROVA**

## Şahmatçımız ölkə çempionu olub



İyunun 16-da Bakı şəhərində start götürən oğlan və qızlar arasında şahmat üzrə Azərbaycan çempionatı davam edir. Müəyyən yaş kateqoriyalarını əhatə edən ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının şahmatçıları da mübarizə aparırlar. Artıq 16 yaşlı qız zəka sahiblərinin birinciliyinə yekun vurulub. Bu yaş qrupunda mübarizə aparan şahmatçımız Nazlı Hümbətova böyük uğura imza atıb. Belə ki, zəka sahibimiz öz yaş qrupunda ölkə çempionu adını qazanıb. O, 7 turdan 5,5 xal toplayıb və ən yaxın rəqibini yarım xal qabaqlayaraq bu ada layiq görülüb.

Qeyd edək ki, ölkə çempionu olan şahmatçılar Azərbaycan yığmasının heyətində öncədən müəyyənləşdirilmiş turnirlərdə mübarizə aparacaqlar.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Rzayeva Xatirə Başirəli qızının adına olan VÖEN itdiyindən etibarsız sayılır.

***

Əhmədova Naroş Aydın qızının adına olan JN-8103A inventar nömrəli, 10400002 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 575